Azərbaycan Respublikasının
Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin
İnkişafına
Dövlət Dəstəyi Fondu

## 14-cü istiqamət: Diaspor quruculuğu, lobbiçilik və dünya azərbaycanlılarının həmrəyliyi




# Xaricdə Azərbaycan diasporunun və dövlətçiliyimizin əleyhinə işləyən antimilli bloqerlər - "televizyonşiklər" dəstəsi...

**Мялум олдуьу кими, ермянилярин Товуз тяхрибатындан сонра дцнйанын бир чох юлкясиндя АСАЛАнын тюрямяляри олан ермяни миллятчиляри диаспор тямсилчиляримиз олан сойдашларымыза щцъумлар етдиляр. Тябиидир ки, диаспор фяалларымыз онларын щцъумларыны ъавабсыз гоймады. Сойдашларымызын бу фядакарлыьы дцнйанын мцхтялиф юлкяляриндя йашайан азярбайъанлылар тяряфиндян бюйцк ряьбят щисси иля гаршыланды.**

**Ермяниперяст мювгеляриндян сонра бяднам йутуберляр тамашачыларыны сцрятля итирир...**

Ancaq bəzi "sapı özümüzdən olan baltalar" bu məsələdə də ermənilərin mövqeyindən çıxış etdilər. Xüsusilə də özünə bloger adını qoyan və xaricdə oturub daima Azərbaycan dövlətini təhqir edən bəzi yutuberlərin bu istiqamətdə "fəallığı" nəzərə çarpdı. Gündüzlər xaricdə öz qaranlıq işlərini görən, gecələr isə şəxsi kanalları vasitəsilə ölkəmizin simvollarını təhqir edən bu adamlar son rəzilliklərini mill məsələdə belə dövlətlərinin yanında olmamaqları ilə sübut etdilər. Onlara olan ictimai qınağın ən bariz göstəricisi isə verilişlərinə olan baxış saylarında özünü dərhal göstərməyə başladı. Müşahidələrimiz göstərdi ki, ermənipərəst mövqelərindən sonra onların verilişlərinə baxış sayında kəskin eniş dinamikası müşahidə olunmağa başlayıb.

**Азярбайъана дцшмян даирялярдян малиййяляшянляр...**

Acı təəssüf doğuran faktlardan biri də odur ki, baş nazir Nikol Paşinyana qarşı amansız mübarizə aparan erməni blogerlər və xaricdə yaşayan siyasi mühacirlər Ermənistana qarşı hər hansı bir tənqidi fikir səsləndirmədilər, əksinə, Azərbaycana qarşı hər bir ermənini birliyə çağırdılar. Xüsusilə qeyd etmək yerinə düşər ki, hansı ölkədə yaşamalarından asılı olmayaraq, erməni ermənliyində qalır. Nə qədər bir-birinə rəqib olsalar da, Azərbaycanla mübarizə məsələsində birləşirlər. Amma bizim xaricdəki bəzi müxalifətçilər belə həssas və məsuliyyətli məqamda birliyə və erməni təcavüzünə qarşı həmrəy olmaq əvəzinə Azərbaycan hökumətini ləkələməyə və rəsmi Bakını ittiham etməyə başladılar. Bütün bu hərəkətlər bir daha təsdiqləyir ki, belə satqın adamların ermənipərəst qüvvələrə bağlılıqları var və Azərbaycana düşmən olan dairələr tərəfindən maliyyələşirlər. ABŞ-da və Belçikada ermənilərin təxribatları daha aydın şəkildə müşahidə edildi. Radikal qüvvələr tərəfindən çoxsaylı aksiya iştirakçılarına fiziki güc tətbiq olundu, onlara xəsarət yetirildi, sərbəst toplaşmaq və öz fikirlərini ifadə etmək hüquqları pozuldu.

**АБШ щакимиййяти етираф етдийи, сяфир азярбайъанлылардан цзр истядийи щалда, Севинъ Османгызы...**

Belçikada keçirilən dinc aksiyada jurnalist xanıma xəsarət yetirildi. Ancaq Sevinc Osmanqızı kimilər Azərbaycanı qaralamağa can atırlar. Ermənilərin Los-Anceles terrorunu ABS? hakimiyyəti etiraf etdiyi, səfir azərbaycanlılardan u?zr istədiyi halda, Sevinc Osmanqızı ermənilərin günahkar olmadığını "sübut" etməyə çalıs?dı. Bu qəbildən olan diasporumuzun üz qaraları xaricdəki həmvətənlərimizin Ermənistanın işğalçılıq siyasətinin əleyhinə olan aksiyalarını xuliqanlıq, quldurluq, vətənşüvənlik kimi qələmə verməyə çalışdılar. Həmin hadisələr zamanı canlı yayımda çıxış edən Sevinc Osmanqızı, şübhəsiz, erməni siyasi mətbəxinin tezisləri əsasında danışaraq deyirdi ki, sizi inandırıram, heç erməni tərəfində belə təxribat niyyəti yoxdur və bu gün sivil mübarizə qaydasını pozan, bu qarşıdurmanı təşkil edən rəsmi Bakıdır. Azərbaycan dövlətinin və xalqının ünvanına yağdırılan bu şər-böhtanın adı açıq düşmənçilikdən başqa bir şey deyil. Sevinc Osmanqızı ilə yanaşı, Ramiz Yunus, Cəmil Həsənli, Tural Sadıqlı kimi "sapı özümüzdən olan baltalar" da bu cür iyrənc fikirləri bölüşdülər. Bu şəxslər azərbaycanlıların vətənpərvərlik aksiyalarını ləkələməyə, onun mahiyyətini təhrif etməyə çalışır, bununla da, necə deyərlər, ermənilərin dəyirmanına su tökür, onların cinayətkar əməllərinə bəraət qazandırmağa cəhd edirlər. Əlbəttə ki, Azərbaycan xalqı xarici ölkələrə sığınıb dövlətimizə və millətimizə böhtan atan bu ünsürlərin əsl riyakar, xain mahiyyətinə dərindən bələddir. Amma istənilən halda diqqətli olmaq, antimilli ünsürlərin çirkin planlarının reallaşmasına imkan verməmək lazımdır.

**Самир Адыэюзялли: "...ермяниляря верилян ъавабларда цзяриня сюйцш мцщаъирляри адыны эютцрмцш шяхслярин "имзасына" раст эялмядик"**

Xaricdəki diasporumuzda olan bu azğın xəttin təmsilçilərinin hərəkətlərini kəskin qınayan diaspor fəalı, Dünya Azərbaycanlıları Konqresi icra aparatının rəhbəri Samir Adıgözəlli "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, bu qəbildən olan adamlar iddia edirlər ki, güya Azərbaycanda daha yaxşı şəraitin yaradılması, insan haqlarının qorunması istiqamətində çalışırlar:"Əslində isə onlar iddia etdikləri amallar uğrunda mücadilə etmirlər. Biz illərdir deyirik ki, bu adamlar antimilli, antidövlətçi xətti tutublar. Bu vaxta qədər müxtəlif üsul və vasitələrlə maskalanmağa çalışırdılar. Belə böhranlı hallar ortaya çıxanda əsl simalarını göstərməkdən də çəkinmədilər. İndiki halda həmin şəxslər Ermənistanın Azərbaycana açıq təcavüzünü belə gözardı edirlər. Onlar Ermənistanla bağlı tənqidi fikir söyləməkdən belə çəkinirlər. Dünyanın müxtəlif şəhərlərində azərbaycanlıların küçələrə çıxıb ermənilərə etiraz etməsini də antimilli mövqedən yozmağa çalışırlar. Hətta Sevinc Osmanqızı utanmadan deyir ki, bu məsələlərdə ermənilərin günahı yoxdur, belə qarşıdurmaları Azərbaycan hökuməti təşkil edir. Bir insan öz millətinə, dövlətinə nə qədər nifrət etməlidir ki, belə bir məqamda bu cür yalan yaymaqla düşmənimizin dəyirmanına su töksün? Bu onların əsl siması və mahiyyətidir. Biz həmişə demişik ki, müxalifətçilik etmək istəyənlər bu fəaliyyəti ölkənin içində etsələr yaxşı olar. Qəbul edək ki, müəyyən səbəblərdən ölkə xaricində də müxaliflik edənlər var. Ermənistanın bizə hücum etməsi, ərazilərimizi işğal etməsində heç bir müxaliflik ola bilməz. Burada biz bütün siyasi maraqları kənara qoyub, Ali Baş Komandanın ətrafında sıx birləşməliyik. Təəssüflər olsun ki, belə məqamlarda adı keçən şəxslər düşmənə cavab vermək əvəzinə, ona dəstək olurlar. Artıq bunu görənlər başa düşür ki, belə adamların arxasınca getmək doğru deyil".

Diaspor fəalının sözlərinə görə, tarixdən məlumdur ki, ermənilər ASALA və digər terror qruplaşmaları ilə türk diplomatlarına, digər ölkələrin vətəndaşlarına həmişə bu kimi hücumlar edib, terrorlar törədiblər: "Bu gün də Ermənistan dövləti, eyni zamanda onun xaricdə dəstəklədiyi ASALA terror təşkilatı tərəfindən vətəndaşlarımıza hücumlar edilir. Bir neçə gün əvvəl isə analoji hücuma ABŞ-dakı soydaşlarımız məruz qaldı. Ermənilərin bu vəhşilikləri bütün dünyada yaşayan soydaşlarımızı bərk hiddətləndirib. Təəssüflə qeyd etməliyik ki, biz ermənilərə verilən cavablarda xarici ölkələrdə oturub üzərinə söyüş mühacirləri adını götürmüş və daima ölkəmizin atributlarını təhqir edən şəxslərin "imzasına" rast gəlmədik. Onların indiyə qədərki fəaliyyət tezislərini, səsləndirdikləri bəyanatları analiz edin. Bilirsiniz nəyi görəcəksiniz? Ermənilərlə tam sinxronluq. Buna görə də cavab vermirlər. Necə olur ki, həmin adamlar Azərbaycanın bir uğuru olan kimi gedib məhz həmin ölkələrdə aksiyalar keçirib etiraz səslərini ucaldırdılar, indi niyə yoxdurlar? Bu cür hadisələr kimin hansı niyyətlə fəaliyyət göstərdiyinə tam işıq salmış olur. Yeri gəlsə, onların köməyinə heç ehtiyacımız da yoxdur. Son hadisələr göstərdi ki, artıq diasporumuz vahid mövqedən çıxış etməyi bacarır. Əminəm ki, dövləti sevən adamların resursları ilə biz erməniləri tam məğlub edəcəyik.

**"Ордумузун 12 ийулда ермяниляря вердийи дярси биз Авропа вя башга юлкялярдя сивил мцбаризя иля тякрарлайа билдик"**

Biz bu hücumlardan çəkinməyərək öz haqlı mübarizəmizi və etirazımızı davam etdirməliyik. İşğalçılara qarşı etirazımızı və öz sözümüzü deməliyik. Ordumuzun 12 iyulda ermənilərə verdiyi dərsi biz Avropa və başqa ölkələrdə sivil mübarizə ilə təkrarlaya bildik. "Beşinci kolon" rolunda çıxış edən bu satqınlar əllərindən gələni edirlər ki, Azərbaycan müxtəlif beynəlxalq səviyyəli platformalarda tənqid olunsun, ölkəmizin imici korlansın. Təbii, son hadisələr bir daha təsdiqlədi ki, biz yalnız erməni ordusu ilə deyil, həm də içimizdəki xainlərlə üzbəüz dayanmışıq. Son döyüşlərin fonunda dünyanın hər yerində Azərbaycan Ordusuna dəstək və erməni təxribatlarına etiraz aksiyaları keçirildi, ancaq milli satqınlar ittiham etməyə çalışdılar. Ermənilərin maraqlarına xidmət edən bu satqınların böhtanlarından yetərincə faydalanan Ermənistan da "Bunu azərbaycanlıların özləri etiraf edir", - deyə dünyanı öz yalanlarına inandırmağa can atırlar. Şübhəsiz, erməni lobbisinin Azərbaycana qarşı təxribatlar, hücumlar təşkil etdiyi bir zamanda özlərini azərbaycanlı hesab edib, guya xalqımız naminə fəaliyyət göstərdiklərini iddia edən Sevinc Osmanqızı, Arif Məmmədov, Tural Sadıqlı kimilər düşmən cəbhəsində yer alırlar".

Ümumiyyətlə, danılmaz faktdır ki, bizdə özünü "müxalifət" adlandıran qaragürühçu dəstə sosial şəbəkələrin verdiyi imkanlardan sui-istifadə edərək siyasi mübarizə adı altında manipulyasiyalara əl atır, hər məqamda dövlətə zərbə vurmağa çalışır. Özlərini "xalqın təəssübkeşi" kimi qələmə verən marginal dəstə ölkənin, xalqın ağır günlərində, hər kəsin həmrəy olub yumruq kimi birləşdiyi vaxtda dağıdıcı mövqe ortaya qoyur, nəinki dövlətlə bir olur, hətta xalqa qarşı durmaqdan belə çəkinmirlər.

**Азярбайъанын чятин эцнляриндя дя эерчяк сималарыны эизлятмядиляр...**

Xatırlayırsınızsa, aprel döyüşləri zamanı bəzi müxalifət təmsilçiləri, o cümlədən xaricdə məskunlaşan radikal mühacir qruplar Azərbaycan xalqına, ordumuza dəstək olmaq əvəzinə, guya uğursuz əməliyyatlar, itki sayının çox olması barədə silsilə dezinformasiyalar yayırdılar. Bununla bağlı sosial şəbəkələrdə xeyli sayda paylaşımların, ordumuzu gözdən salmağa hesablanmış qeyri-rəsmi məlumatların dövriyyəyə buraxılmasının şahidi olurduq. Təəssüf ki, oxşar tendensiya iyul döyüşləri - Tovuzda baş verən erməni təxribatı zamanı da davam etdi. Xalq gördü ki, "vətənpərvərlik" donuna bürünən bu diasapor təmsilçilərimiz Azərbaycanın çətin günlərində, ermənilərin təxribatları ilə üzləşdiyimiz anlarda gerçək simalarını gizlətmirlər, əksinə, düşmən cəbhədən Azərbaycana qarşı xaincəsinə vuruşmaları ilə fəxr edirlər. Öz dövləti və ordusuna qarşı müxaliflik edənlər, təbii ki, düz yolda deyillər. Son hadisələr göstərdi ki, hətta hakimiyyətə müxalif olan əsl vətənpərvər diaspor nümayəndələrimiz belə öz milli və dövlətçi mövqelərini ortaya qoymaqla əsl mühacir adına layiq davranış nümayiş etdirdilər. Digərlərinə isə nə mühacir, nə müxalifətçi, nə də diaspor fəalı adı yaraşır. Onların etdiyi əməlin adı yuxarıda bir neçə dəfə qeyd edilidi.

*Məhəmmədəli QƏRİBLİ*

**Йазы Азярбайъан Республикасынын Президенти йанында Кцтляви Информасийа Васитяляринин Инкишафына Дювлят Дястяйи Фондунун малиййя дястяйиля чап олунур.**